MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİ
*Dayanıqlı inkişaf, cild 3, № 1, 2023*

UOT 327(091)

# RUSİYA-TÜRKİYƏ MÜNASİBƏTLƏRİNİN TARİXİ VƏ MÜASİR MƏRHƏLƏSİ

**Mətanət Rizvan qızı Yusifova**
Mingəçevir Dövlət Universiteti
matanat.yusifova@mdu.edu.az

***Xülasə:*** *Məqalədə Soyuq müharibədən sonra Rusiya ilə Türkiyə arasında mövcud olan siyasi münasibətlərin daha da möhkəmlənməsindən və genişlənməsindən bəhs edilir.İki ölkə arasında münasibətlərin məzmununa görə bir neçə fərqli mərhələdən keçdiyi göstərilir və qeyd edilir ki, Moskva və Ankaranın qarşısında "təyyarə böhranı" nəticəsində sarsıdılmış etimadı bərpa etmək və yeni, daha dayanıqlı əməkdaşlıq modelləri axtarmaq vəzifəsi durur.*

***Açar sözlər:*** *Rusiya-Türkiyə münasibətləri, soyuq müharibə, xarici siyasət, ikinci Qarabağ müharibəsi, beynəlxalq münasibətlər*

## Giriş

Rusiya-Türkiyə münasibətlərinin tarixi beş əsrdən çoxdur. Belə ki, tarixçilər bu münasibətlərin tarixini 1492-ci il avqustun 30-da Moskva knyazı III İvanın Osmanlı sultanı II Bəyazidə göndərdiyi dəniz ticarəti ilə bağlı məlumatı ilə hesablayırlar. Qeyd etmək lazımdır ki, iki dövlətin bir-biri ilə, eləcə də hər iki dövlətin dünya dövlətləri ilə diplomatik münasibətləri o dövrdən etibarən gah enən, gah da yüksələn xəttlə davam edir. Məqalədə Rusiya-Türkiyə münasibətlərinə digər dövlətlərin xarici siyasətlərində ayrılan yer və bu münasibətlərə təsir göstərilməsi cəhdlərinə diqqət yetirilir.

1701-ci ildə İstanbulda daimi əsaslarla Rusiya imperiyasının səfirliyi açıldı. 1920-ci il iyunun 3-də RSFSR (SSRİ) ilə Türkiyə Cümhuriyyəti arasında diplomatik əlaqələr qurulduğu dövrdə hər iki dövlət yeni şəraitdə münasibətlərinin məzmununu müəyyən etməli idi. Rusiya ilə Türkiyə arasında sonrakı dövlətlərarası saziş 1925-ci ildə imzalandı, lakin 20 il qüvvədə olduğu müddətdən sonra uzadılmadı. Heç bir yeni müqavilə də imzalanmadığına görə Soyuq müharibənin sonuna qədər Rusiya-Türkiyə münasibətlərini nizamlayan yeganə sənəd 1921-ci ilə aid olan "Dostluq və qardaşlıq haqqındakı müqavilə" idi. İki ölkə arasında münasibətlərin əsasları haqqında növbəti müqavilə isə 1992-ci il mayın 25-də bağlandı. Bu sənədin mətnində qeyd olunurdu ki, dünyada baş vermiş müəyyən tarixi dəyişikliklərlə bağlı olaraq, Rusiya Federasiyası ilə Türkiyə Respublikası arasında münasibətlərin müəyyənləşdirilməsi üçün yeni müqavilənin imzalanması labüdləşmişdır. Rusiya Federasiyası ilə Türkiyə Respublikası arasında münasibətlərin əsasları haqqındaimzalanmış bu müqavilə hazırda müasir Rusiya-Türkiyə münasibətlərinin əsas sənədi hesab edilir.

Yüz il əvvəl iki gənc dövlət öz suverenliyinin qorunmasına və Qərbin imperialist güclərinin regional təsirinin məhdudlaşdırılmasına əsaslanan ümumi milli maraqları inkişaf etdirirdilər. Bu zaman hər iki ölkə dəyişən dünya şəraitində beynəlxalq aləmdə öz yerini axtarmaqla məşğul idi və tez-tez ziddiyyətlərin yarandığı ikitərəfli siyasi münasibətlərin yeni modelini qurmağa çalışırdı. Lakin o dövrdə imperiya irsinin yenidən nəzərdən keçirilməsi və iki ölkə arasında qarşıdurma kimi yaranan "sovet-türk dostluğu" məsələsi Türkiyə Cümhuriyyətinin qurucusu və prezidenti Atatürkün vəfatından az sonra əvvəlki dinamikasını itirməyə başladı. 1952-ci ildə Türkiyə Respublikası Şimali Atlantika Alyansının bir hissəsi oldu və bu, Soyuq müharibə dövründə Sovet-Türkiyə münasibətlərinin müəyyənedici amilinə çevrildi.

Soyuq müharibə başa çatdıqdan sonra hər iki ölkənin xarici siyasəti dəyişdi və Moskva ilə Ankara müxtəlif sahələrdə siyasi təmasları və ikitərəfli əməkdaşlığı intensivləşdirmək üçün imkan qazandılar. Rusiya-Türkiyə münasibətlərinin yeni şəraitdə 25 illik inkişafının nəticəsi iki ölkə

arasında görünməmiş yaxınlaşma səviyyəsinə çevrildi. Hətta 2015-2016-cı illərdə dövlətlərarası münaqişə belə bu münasibətlərin əsaslarını məhv etmədi. Ümumiyyətlə, XX əsrin sonu – XXI əsrin əvvəllərində Rusiya-Türkiyə siyasi münasibətlərini şərti olaraq bir neçə mərhələyə bölmək olar.

**Birinci mərhələ** 1991-ci ildən 2000-ci illərin əvvəllərinə qədərki dövrü əhatə edir. Bu mərhələ 1991-ci ilin dekabrında Sovet İttifaqının dağılması ilə başladı. Həmin dövrdə Avropa və Asiyanın qovşağında yerləşmiş hər iki ölkə regionda sülh və sabitliyi təşviq etmək istəklərini ifadə edirdilər. Bu məqsədlə Moskva və Ankara fikir ayrılıqlarını yalnız sülh yolu ilə həll etməyə söz verdilər; qarşılıqlı münasibətlərdə güc tətbiq etməmək və ya zorla təhdid etməmək; tərəflərdən biri səbəbsiz silahlı hücuma məruz qaldıqda, təcavüzkara hər hansı hərbi və ya digər yardım göstərməmək; sülh üçün təhlükə yarandıqda, münaqişəni həll etmək üçün tədbirlər haqqında məsləhətləşmək; uzunmüddətli əsasda iqtisadiyyat, ticarət, mədəniyyət, elm, texnologiya və ekologiya sahələrində genişmiqyaslı əməkdaşlığı inkişaf etdirmək və s. bu kimi öhdəlikləri bəyan etdilər.

1990-cı illərdə Rusiya ilə Türkiyə arasında siyasi münasibətlərdə gərginlik tez-tez qarşılıqlı inamın olmaması və müəyyən beynəlxalq məsələlərə yanaşmada ziddiyyətlər səbəbindən yaranırdı. Narazılığın əsas səbəbi əvvəllər Sovet İttifaqının tərkibində olan türk dövlət qurumları ilə əlaqələr idi. Belə ki, 1991-ci ildən sonra yeni müstəqil türk dövlətlərinin dünya səhnəsinə çıxması Türkiyədə böyük ruh yüksəkliyi ilə qarşılandı. Baş nazir S.Dəmirəlin "Adriatikdən Çin Səddinə qədər nəhəng türk dünyası"nın yaranması ilə bağlı bəyanatı hər kəsə məlumdur [1]. Türkiyənin federal mərkəzdən yan keçərək türk əhalisinin əksəriyyətinin yaşadığı Rusiya bölgələri ilə birbaşa əlaqə yaratmaq və bu bölgələri beynəlxalq türk təşkilatlarına daxil etmək cəhdləri, digər tərəfdən Ankaranın türk dünyasında liderlik istəklərini Vaşinqtonun da fəal şəkildə dəstəkləməsi Moskvanın narahatlığını artırdı. Bu məsələlərin Rusiya ilə Türkiyə arasında yaratdığı gərginlikdən sonra həm Moskva, həm də Ankara Qafqazda və Mərkəzi Asiyada sabitliyin qorunub saxlanmasında, üçüncü güclərin bu regionlardakı vəziyyətə təsirinin məhdudlaşdırılmasında maraqlı olduqlarını göstərməyə çalışdılar və get-gedə anlamağa müvəffəq oldular ki, hər iki ölkənin türk dövlət qurumları ilə xüsusi münasibəti var və onlar bu məsələdə bir-biri ilə rəqabət aparmalı deyillər: Rusiya türk xalqları ilə etnik və dil qohumluğu cəhətdən bağlı olan Türkiyənin yerini tuta bilməz, eyni zamanda Türkiyə geniş iqtisadi, siyasi və sosial bağlarla birləşmiş türk respublikaları üçün Rusiyanı əvəz edə bilməz. Tədricən bi fikir Rusiyanın rəsmi dövlət siyasətinin bir hissəsinə çevrildi.

Rusiya və Türkiyənin bir sıra beynəlxalq problemlərə, xüsusilə Bosniya və Kosovo münaqişələrinə yanaşmalarında da fərqliliklər var idi. Siyasi münasibətlərdə bir problem də 1990-cı illərin ikinci yarısında iki ölkənin çeçen və kürd separatçılarına münasibətdə qarşılıqlı ittihamları oldu. 1998-ci ildə Rusiyanın A.Öcalana siyasi sığınacaq verməkdən imtina etməsi və 1999-cu ildə iki ölkənin Terrorla Mübarizə üzrə Əməkdaşlıq haqqında Birgə Bəyannamə imzalaması bu məsələdəki gərginliyi yumşaltdı.

Digər bir problem Ankaranın ekoloji səbəblərə görə boğazlardan neftin tranzitini məhdudlaşdırmaq istəyi idi ki, bu, Rusiyanın maraqlarına cavab vermirdi. Həmçinin Türkiyə 1998-ci ildə Rusiyanın Kipr Respublikasına S-300 raketləri satmasından da narazılığını ifadə etmişdi. Bu ziddiyyət raketlərin Kiprdə deyil, Yunanıstanda yerləşdirilməsi ilə sona çatdı.

2001-ci ildə "Rusiya Federasiyası ilə Türkiyə Respublikası arasında Avrasiyada əməkdaşlığın inkişafı üzrə Fəaliyyət Planı" imzalandı ki, bu da tərəflərin regionda sülhün, sabitliyin və davamlı inkişafın qorunması üçün birgə səylər göstərmək niyyətini ifadə edirdi [2]. Bu plan Rusiya-Türkiyə qarşılıqlı fəaliyyətini ikitərəfli formatdan regional əməkdaşlıq səviyyəsinə qədər genişləndirmək üçün iki ölkə arasında münasibətlərin inkişafında keyfiyyətcə yeni mərhələyə keçməsi demək idi. Rusiya və Türkiyənin qonşu regionlarla sıx tarixi, siyasi, iqtisadi və sosial-mədəni əlaqələri, eləcə

də əməkdaşlıq üçün yeni imkanların və yeni təhlükəsizlik çağırışlarının yaranması regional məsuliyyətin ortaq dərk edilməsini müəyyən etdi.

**İkinci mərhələ** 2003-cü ildən 2015-ci ilə qədər iki ölkə arasında siyasi dialoqun intensiv inkişaf etməyə başladığı və Rusiya-Türkiyə əməkdaşlığının tarixində heç vaxt görünməyən ən yaxşı səviyyəyə çatdığı dövr idi. Butendensiyanın həqiqi və dərin inkişafı 2002-ci ilin sonunda Ədalət və İnkişaf Partiyasının Türkiyədə hakimiyyətə gəlişindən sonra başladı. Bu dövrdə iki ölkə arasında əməkdaşlıq bütün istiqamətlərdə genişləndi. İqtisadi əməkdaşlıq "Rusiya-Türkiyə münasibətlərinin lokomotivi" sayılırsa, şübhəsiz ki, siyasi dialoqu bu illər ərzində yaradılmış müxtəlif siyasi mexanizmlər vasitəsilə onları bir arada saxlayan "ikitərəfli münasibətlərin özəyi" adlandırmaq olar. 2004-cü ildə Rusiya prezidenti V.V.Putin və Türkiyə prezidenti Ə.N.Sezer Ankarada siyasi təmasların intensivləşdirilməsini və bütün səviyyələrdə səfər mübadiləsini nəzərdə tutan dostluq və çoxşaxəli tərəfdaşlığın dərinləşdirilməsinə dair Birgə Bəyannamə imzaladılar. Bu sənəddə iki ölkənin bir çox regional və ya beynəlxalq problemlərə prinsipial yanaşmalarının oxşarlığı və ya yaxınlığı qeyd olunurdu. Bu sənədlə Rusiya və Türkiyə "aralarındakı mövcud dostluq və əməkdaşlıq münasibətlərini qabaqcıl çoxşaxəli tərəfdaşlıq səviyyəsinə çatdırmaq əzmində olduqlarını" bəyan etdilər [2].

Sonrakı illərdə iki ölkə arasında dövlət, hökumət başçıları və nazirlər səviyyəsində siyasi əlaqələr və səfərlər intensivləşdi, həmçinin Xarici İşlər Nazirlikləri arasında ikitərəfli, regional və beynəlxalq məsələlər üzrə müntəzəm məsləhətləşmələr başlandı. 2009-cu ildə Moskvada Rusiya Federasiyası ilə Türkiyə Respublikası arasında münasibətlərdə yeni mərhələyə doğru irəliləyiş haqqında Birgə Bəyannamə imzalandı. Sənəddə bildirilirdi ki, Rusiya ilə Türkiyə arasında əməkdaşlıq təkcə iki ölkənin maraqlarına deyil, həm də Avrasiyada sülhün, təhlükəsizliyin, sabitliyin və inkişafın möhkəmlənməsinə töhfə verir [3].

Çoxşaxəli tərəfdaşlığa doğru irəliləmək üçün bir sıra istiqamətlərdə siyasi dialoqun genişləndirilməsi planlaşdırılırdı: Cənubi Qafqazda dondurulmuş münaqişələrin həlli, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının çoxtərəfli platformasının səmərəliliyinin artırılması və Qara Dəniz bölgəsində təhlükəsizliyin təmin olunması. Tərəflərin fikirlərinin üst-üstə düşdüyü mühüm məqam Montre Konvensiyasının qorunub saxlanması məsələsi oldu (Boğazlar üzərində Türkiyənin suverenliyi haqqında, 1936-cı ildə qəbul olunmuşdur).

**Üçüncü mərhələ** 2015-ci ilin noyabr ayının sonundan 2016-cı ilin iyun ayının sonuna qədər davam etdi. Belə ki, söhbət 2015-ci il noyabrın 24-də Suriya ərazisi üzərində Türkiyə Hərbi Hava Qüvvələrinin qırıcısı tərəfindən vurulmasından, Rusiya Aerokosmik Qüvvələrinə məxsus Su-24 bombardmançı təyyarəsinin pilotu Oleq Peşkovun həlak olmasından gedir. İnsidentdən dərhal sonra Rusiya prezidenti Vladimir Putin Ankaranın hərəkətlərini "terror ortaqlarının arxadan vurduğu zərbə" kimi qiymətləndirərək, bu hadisənin Rusiya-Türkiyə münasibətlərinin sonrakı inkişafı üçün ciddi nəticələr verə biləcəyini vurğuladı. Öz növbəsində, Ərdoğan üzr istəməkdən imtina etdi və bildirdi ki, oxşar vəziyyət təkrarlanarsa, Türkiyə yenə "aynı şey"i edəcək. Hadisənin nəticəsi o oldu ki, Rusiya 2016-cı il yanvarın 1-də Türkiyə ilə çarter aviareyslərinə və turların satışına qadağalar qoydu; vizasız rejimi dayandırdı və geniş çeşiddə türk mallarına (ilk növbədə kənd təsərrüfatı məhsullarına) sanksiyalar tətbiq etdi. Böyük iqtisadilayihələr, xüsusən də "Türk axını" qaz kəmərinin və "Akkuyu" atom elektrik stansiyasının icrası dayandırıldı. İkitərəfli siyasi təmaslar virtual olaraq donduruldu. Rusiya və Türkiyə münaqişə vəziyyətində idi. Həmin günlərdə V.V.Putin Rusiya-Türkiyə münasibətlərinin pisləşməsindən təəssüfləndiyini açıq şəkildə bildirdi [4].

Ümumilikdə, xarici siyasətdətətbiq edilməsi nəzərdə tutulanregional məsələlər üzrə müntəzəm məsləhətləşmələr mexanizmi birgə yanaşmaların inkişafına və iki ölkənin birgə maraqlarının həyata keçirilməsinə şərait yaradan amil kimi qəbul olunur. Bu mərhələdə Rusiya və Türkiyə liderləri arasında olan birbaşa təmaslar siyasi münasibətlərin və eləcə də, iki ölkə arasında çoxşaxəli

əməkdaşlığın inkişafında mühüm rol oynadı. Nəticədə "telefon diplomatiyası" adlanan üsul – iki ölkə rəhbərliyi arasında müntəzəm telefon danışıqları Rusiya ilə Türkiyə arasında nisbətən sabit və sakit mühitin saxlanmasına öz töhfəsini verdi.

**Dördüncü mərhələnin** başlanğıcını Moskva ilə Ankara arasında münasibətlərin normallaşmasının baş verdiyi 2016-cı ilin iyun ayının axırından hesablamaqolar. Belə ki, ölkələr arasında ciddi böhrana səbəb olan hadisə Türkiyədə dövlət çevrilişinə cəhddən bir gün sonra (15 iyul 2016-cı il) prezident Putinin türkiyəli həmkarı Ərdoğana zəng edərək Türkiyənin qanuni rəhbərliyinə dəstəyini ifadə etməsi ilə sabitləşdi. Bu fakt Ankarada yüksək qiymətləndirildi. İki prezidentin 2016-cı il avqustun 9-da Sankt-Peterburqda baş tutan şəxsi görüşü əlamətdar hadisəyə çevrildi ki, bu da Rusiya-Türkiyə münaqişəsinin tamamilə həll olunmasının təzahürü idi. Böhran başa çatdıqdan sonra Rusiya ilə Türkiyə arasında münasibətlərin bütün istiqamətlərdə sürətlə bərpa olunmağa başlaması əvvəlki illərdə əməkdaşlığın möhkəm təməlinin qoyulması demək idi [4].

2016-cı il dekabrın 19-da Rusiyanın Türkiyədəki səfiri Andrey Karlovun qətlə yetirilməsi Rusiya-Türkiyə münasibətlərinin möhkəmliyinin növbəti sınağı oldu. Moskva və Ankara terror aktını münasibətlərin normallaşması prosesini pozmağa yönəlmiş təxribat kimi qiymətləndirdi. Türkiyə prezidenti səfirin ölümündə günahkarların tapılaraq cəzalandırılacağına söz verdi və siyasi dialoq davam etdirildi.

2019-cu ildə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan yanvar, fevral, aprel, avqust və oktyabr aylarında Rusiyaya işgüzar səfərlər etdi. Bu görüşlər zamanı Suriya Ərəb Respublikasındakı vəziyyət, xüsusilə ölkənin şimal-şərqində vəziyyətin normallaşdırılması, beynəlxalq terror qruplaşmalarına qarşı mübarizə və siyasi nizamlanma prosesinin irəlilədilməsi məsələləri müzakirə olundu. Bir neçə saat davam edən beynəlxalq məsləhətləşmələrdən sonra prezidentlər Rusiya və Türkiyə arasında anlaşma memorandumu qəbul etdilər. İkitərəfli təmaslar 2019-cu ilin sentyabrında Nur-Sultanda Avrasiya Ölkələri Parlamentləri Sədrlərinin IV Toplantısı çərçivəsində və Belqradda Parlamentlərarası İttifaqın 141-ci Assambleyası çərçivəsində baş tutmuşdur. Hazırda Rusiya və Türkiyə liderləri, eləcə də iki ölkənin xarici işlər orqanlarının rəhbərləri arasında fəal dialoq aparılır.

2020-ci ilin payızında başlayan İkinci Qarabağ müharibəsi təkcə bu müharibədə iştirak edən Ermənistan və Azərbaycan üçün deyil, qonşu güclər üçün də dönüş nöqtəsi hesab edilir. Bu müharibə Cənubi Qafqazda siyasi və hərbi qüvvələr balansını dəyişdirdi, Türkiyənin regional güc kimi daha da yüksəlməsinə töhfə verdi, Rusiyanın Zaqafqaziyadakı təsirinin real sərhədlərini, ABŞ və Aİ ölkələrinin real maraqlarının dərəcəsini müəyyənləşdirdi. Rusiya Qafqazda türk varlığının reallığını tanıdı, İrəvanla Bakı arasında yeganə vasitəçi kimi öz "sifətini" qismən saxladı, həmçinin Rusiyanın maraqlarına sadiq qalacaq istənilən Ermənistan rəhbərliyi ilə işləməyə hazır olduğunu bildirdi.

İkinci Qarabağ müharibəsindən sonra Rusiya özünün xarici siyasət strategiyasında Azərbaycan silahlı qüvvələrinin Azərbaycanda uğurlu hücum əməliyyatının hazırlanmasında və keçirilməsində mühüm rol oynamış NATO üzvü və iddialı regional güc Türkiyənin Transqafqazda siyasi və hərbi mövcudluğunu nəzərə almalıdır.

Bəzi beynəlxalq analitiklər atəşkəs və Rusiya sülhməramlı qüvvələrinin Qarabağda yerləşdirilməsinə dair razılaşmanı Moskvanın qələbəsi adlandıraraq, onun qoşunlarının indi hər üç dövlətin – Ermənistanın (Gümrüdəki bazası), Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərində (Dağlıq Qarabağda) və Gürcüstanın (Abxaziya və Cənubi Osetiya) ərazilərində sülhməramlılar kimi yerləşdirilməsi faktını qabartdılar [6].

Ermənistan, Abxaziya və Cənubi Osetiyadakı Rusiya bazaları ilə bağlı vəziyyəti bir kənara qoyaraq, Rusiyanın sülhməramlı qüvvələrinin Qarabağda mövcudluğunun şərtiliyini qeyd etmək lazımdır. Rusiya sülhməramlılarının 2020-ci ilin noyabrında razılaşdırılmış 5 illik mandatı, yəni

əslində, Qarabağ ermənilərinin əlində olan ərazinin Rusiyanın protektoratı kimi müvəqqəti statusu onun uzadılmasına imkan verir, lakin belə uzadılma, əgər baş versə belə, asan olmayacaq, çünki Rusiya da, Ermənistan da belə vəziyyəti saxlamağa çalışacaqlar. Müharibədən sonrakı ilk mərhələlrdə rəsmi Bakı artıq müttəfiqi Ankara ilə birlikdə regionun Azərbaycanın nəzarətinə tam qaytarılması üçün Moskvaya təzyiq göstərməyə başlaması onu göstərir ki, regionda mövcud status-kvo ilkin olaraq qeyri-sabitdir. Belə bir şəraitdə Moskvanın münaqişə zonasında vəziyyətə nəzarət edən arbitr rolunu saxlamaqla, müttəfiqi sayılan Ermənistanla tərəfdaşı hesab edilən Azərbaycan arasında uzunmüddətli balansın saxlanmasında keçmiş Rusiyanın payı real deyil. 1994-cü ildə Moskvanın vasitəçiliyi ilə əldə edilən atəşkəs dörddə bir əsrdən çox davam etdi, lakin son nəticədə yenə də müharibənin qarşısını ala bilmədi. Dağlıq Qarabağın xarabalıqları üzərində oxşar bir şeyin yenidən qurulmasına cəhd etmək mənasızdır.

Qarabağ münaqişəsinin yekun həllinə hələ də təkcə diplomatiya ilə, hökumətlərarası səviyyədə nail olmaq mümkün deyil. Çünki bu zaman iki ölkənin geniş elita qruplarının və cəmiyyətlərinin uzlaşmaya doğru real hərəkəti tələb edilir ki, bu da yaxın gələcəkdə praktiki olaraq ağlasığmazdır. Məsələnin hərbi yolla həlli var, lakin o, Rusiya sülhməramlıları ilə birbaşa toqquşma demək olardı, bu isə ciddi maneədir, lakin kənardan hərbi dəstək alaraq, məsələni öz xeyrinə həll etməyə çalışacaq tərəf üçün çətin ki, tamamilə keçilməz hesab oluna bilər (üstəlik, Rusiyanın üç ay əvvəl Ukrayna ilə başladığı müharibəni də nəzərə almaq lazımdır).

Rusiya tərəfindən strateji baxımdan müharibə edən tərəflər arasında iqtisadi əməkdaşlıq layihələrinin təşviqi, SSRİ-nin dağılmasından sonra parçalanmış regionun daxili birliyinin saxlanması, şimal-cənub və şərq-qərb xətləri boyunca nəqliyyat və digər kommunikasiyaların inkişafı istiqamətində kurs müəyyən edilmişdir. Rasional nöqteyi-nəzərdən bu, düzgün yanaşmadır və daim konkret nəticələr əldə etməklə onu inkişaf etdirmək olar. Türkiyə tərəfi də öz növbəsində hesab edir ki, Rusiya ilə gələcək əməkdaşlıq üçün böyük potensiala malikdir və miqrasiya, enerji, təhlükəsizlik, Yaxın Şərq sülh prosesinə qədər qlobal və regional problemlərin həllində birgə çalışmalıdırlar. İndi siyasi dialoqu genişləndirmək, Rusiya-Türkiyə münasibətlərinin əsaslarını gücləndirmək həmişəkindən daha çox lazımdır [5]. Hazırda Azərbaycanda, Ermənistanda və onların arasında baş verən hadisələrə Türkiyə, İran və İsrailin təsiri Amerika və Avropanınkından daha çoxdur. Bu vəziyyət Rusiya siyasətini postsovet və ya Rusiya-Qərb kontekstində deyil, Transqafqaz qonşularına - Yaxın Şərqdə daha adekvat yanaşmalar axtarışına yönəltməlidir.

Beləliklə, Rusiya-Türkiyə münasibətləri getdikcə daha rəngarəng hal alır, çünki Ankaranın təsiri və ambisiyaları təkcə bir vaxtlar Osmanlı imperiyasının tərkibində olan ölkələrə deyil, həm də Orta Asiya, Şimali Qafqaz, Krım, Abxaziya və s. rayonlara yayılır. Türkiyənin Qarabağ münaqişəsinə uğurlu müdaxiləsi bu təsirin əsasını xeyli genişləndirdi; onun Azərbaycanla və Türkmənistanla ittifaq yaratmaq cəhdləri Xəzərdə də yeni geosiyasi situasiya yaradır. Bu dövlətlə birbaşa toqquşma Rusiyanın maraqlarına heç uyğun deyil. Rusiya Türkiyəni tərəfdaş və xüsusi strateji müttəfiq kimi qiymətləndirməlidir.

2021-2022-ci illərdə bu iki böyük dövlətin bir-biri ilə münasibətlərinə gəldikdə isə, qeyd edilməlidir ki, Türkiyə Ukraynanın ərazi bütövlüyünü dəstəkləməsinə və Krımda keçirilən referendumun nəticələrini tanımamasına baxmayaraq, Qərbin Rusiyaya qarşı sanksiyalarına qoşulmaqdan imtina etdi və onunla iqtisadi əməkdaşlığı davam etdirdi. Üstəlik, Rusiya Prezidenti V. Putinin 2014-cü ilin dekabrında Türkiyəyə səfəri zamanı "Türk axını" qaz kəməri layihəsi haqqında verilən açıqlama da iki ölkə arasında əməkdaşlığın daha yüksək səviyyəyə keçməsinin sübutu sayıla bilər [7].

Görünən odur ki, Rusiyaya münasibətdə onun strateji yönləndirmə məntiqinə uyğun gələn xüsusi mövqe tutan Türkiyə Rusiya ilə Qərb arasında artan qarşıdurma şəraitində onun üçün açılan imkanlardan istifadə etməyə çalışır.

**Nəticə**

Beləliklə, 2009-cu ildə Moskvada imzalanmış Bəyannaməyə görə Rusiya ilə Türkiyə arasında diplomatik münasibətlərdə yeni mərhələyə keçid labüd qiymətləndirilmişdir. Xüsusilə, onu qeyd etmək lazımdır ki, sənəddə deyildiyi kimi, bu iki dövlət arasında əməkdaşlıq yalnız onların maraqlarına deyil, həm də Avrasiyada sülhün, təhlükəsizliyin, sabitliyin və inkişafın möhkəmlənməsinə töhfə verir. Hazırkı mərhələdə, yəni Rusiyanın Ukraynada həyata keçirdiyi xüsusi hərbi əməliyyatların davam etdiyi, Rusiyanın Qərb dövlətləri ilə münasibətlərinin kəskinləşdiyi bir dövrdə bu, daha aktualdır.

**İstifadə edilmiş ədəbiyyat**

1. Cumhuriyet Gazetesi. 24 Şubat, 1992

2. Совместная декларация об углублении дружбы и многопланового партнерства между Российской Федерацией и Турецкой Республикой. 6 декабря 2004 г. // Официальный сайт Президента РФ. URL: http://www.kremlin.ru/supplement/3933

3. Совместная декларация о продвижении к новому этапу отношений между Российской Федерацией и Турецкой Республикой и дальнейшем углублении дружбы и многопланового партнёрства. 13 февраля 2009 г. // Официальный сайт Президента РФ. URL: http://www.kremlin.ru/supplement/172

4. “Отношений очень жалко”: Владимир Путин обвинил Анкару в попустительстве террористам // ТАСС. –2015.–1декабря. URL: http://tass.ru/politika/2486462

5. Путин выступил с заявлением по Карабаху. URL: https://iz.ru/1084914

6. Оценены результаты войны в Карабахе. URL: https://lenta.ru/news/2020/11/12

7. Российско-турецкие отношения: новые тренды, старые дилеммы. URL: https://publications.hse.ru/pubs/share/direct/522695734.pdf

**HISTORY AND MODERN STAGE OF RUSSIAN-TURKISH RELATIONS**

**M.Yusifova**
Mingachevir State University

***Abstract:*** *Political relations between Russiaand Turkey have considerably expanded and strengthened after theend of the Cold War. During this time, the relations passed through several different phases. RecentlyRussian-Turkish relations were seriously damaged by the SU-24 jet crisis. Today Moscow and Ankarahave to undertake the task of recovering lost trust and seaking for new and more stable models of bilateralcooperation.*

***Keywords:*** *Russian-Turkish relations, cold war, foreignpolicy, the second Karabakh war, international relations*

**ИСТОРИЯ И СОВРЕМЕННЫЙ ЭТАП РОССИЙСКО-ТУРЕЦКИХ ОТНОШЕНИЙ**

**М.Р.Юсифова**
Мингячевирский государственный университет

***Резюме:*** *Политические отношения между Россией и Турцией значительно расширились и укрепились после окончания Холодной войны. За этот период отношения между двумя странами прошли через несколько этапов, которые отличались по своему содержанию. На современном этапе передМосквой и Анкарой стоит задача восстановления доверия, подорванного в результате «кризиса с самолетом», и поискановых, более устойчивых моделей сотрудничества.*

***Ключевые слова:*** *российско-турецкие отношения, холодная война, внешняя политика, вторая Карабахская война, международные отношения*

**Elmi redaktor: t.f.d. A.İsmayılov**
**Çapa təqdim edən redaktor: tar.f.d., dos. N.Zeynalov**
**Daxil olub: 03.02.2023**
**Çapa qəbul edilib: 10.02.2023**